

# Unudulmayan igid oğullar

**Masallı rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi Murad Nefesovun 24-cü doğum günü münasibətilə tədbir keçirilib.**

Mərasimdə Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda canlarını fəda edən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anıldıqdan sonra kitabxananın əməkdaşı Gülər Piriyeva bildirib ki, gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsi olan Murad Nefesovun timsalında Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi xalqımız tərəfindən daim uca tutulur, böyük ehtiramla yad olunurlar.

Kitabxananın digər əməkdaşı Rasif Dadaşov məruzəsində şəhid Murad Nefesovun şərəfli həyat və döyüş yolu haqqında məruzə edərək deyib:

- Azərbaycan Ordusunun əsgəri olan Murad Nefesov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsində savaş meydanında birincilər sırasında öz yerini alıb. O, Cəbrayılın, Füzulinin, Qubadlının, Zəngilanın, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. Murad Nefesov 7 noyabr 2020-ci ildə Şuşa istiqamətində gedən ağır müharibədə son damla qanına qədər vuruşaraq şəhidlik zirvəsinə yüksəlib.



Qeyd olunub ki, zəfər şəhidi Murad Nefesovun döyüş meydanında göstərdiyi qəhrəmanlığı nəzərə alınaraq o, Prezidentin Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenə və "Vətən uğrunda" medalına layiq görülüb.

**Zəfər ORUCOĞLU.**

Respublika .- 2025.- 21 fevral (№ 38).-